# "Paşinyanın açıqlamaları ilə hərəkətləri bir-birinə ziddir"



**"Martın 4-də "Armenpress" media agentliyində Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanla Ermənistan arasında bütün kommunikasiyaların açılması ilə bağlı məqalə ilə çıxış edib. Məqalədə Ermənistanın Azərbaycanla bütün kommunikasiyaların açılmasına razı olduğu bildirilir. Təbii ki, Paşinyanın mahiyyətcə əhəmiyyəti olmayan, icrası çətin və praktiki cəhətdən uzun marşrutlar üzrə təkliflər irəli sürməsi ilə bağlı açıqlama verməsi diqqəti prosesdən və öhdəliklərindən yayındırmaq məqsədi daşıyır".**

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Azər Badamov deyib. O bildirib ki, Azərbaycandan Naxçıvana və Türkiyəyə daşımaların həyata keçirilməsində bir çətinlik yoxdur: "Amma 30 ilə yaxın bir müddətdə Ermənistanın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suveren ərazilərini işğal altında saxlaması, Naxçıvan Muxtar Respublikasının blokadaya salınması, eləcə də 44 günlük Vətən müharibəsindən sonrakı dörd ildə də kommunikasiyaların açılması üzrə real danışıqlar prosesinə müsbət töhfə vermədiyi hər kəsə məlumdur. "İndi isə Paşinyan kommunikasiyaların açılmasına hazır olduğunu bildirməklə guya sülh və əməkdaşlığı dəstəklədiyini nümayiş etdirməyə çalışır. Əgər o, həqiqətən kommunikasiyaların açılmasını dəstəkləyirsə, ilk növbədə, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatın 9-cu bəndinin icrasının nə yerdə olduğundan danışsın. Çünki dövlət başçılarının imzaları ilə təsdiq olunmuş bu sənəddə Azərbaycanın Qərb rayonları ilə Naxçıvan arasında maneəsiz keçidin yaradılması və bu keçiddə təhlükəsizliyin kim tərəfindən təmin edilməli olduğu açıq şəkildə qeyd olunub. Burada xüsusi tənliklərin və düsturların həll edilməsinə ehtiyac yoxdur. Ona görə də əgər Ermənistan Azərbaycanın Qərb rayonları ilə maneəsiz və təhlükəsiz keçidinin açılmasına həqiqətən hazırdırsa, ilk növbədə, bütün kommunikasiyaların açılmasından əvvəl bu bəndin icrası ilə bağlı hansı addımların atıldığından danışsın".

Deputat qeyd edib ki, Azərbaycan öz imzasına sadiq qalaraq Qərbi Zəngəzura qədər olan dəmir və avtomobil yollarını yenidən qurub başa çatdırmaq üzrədir: "Paşinyan isə ancaq boş-boş danışmaqda davam edir. Yaxşı olardı ki, Ermənistan Zəngəzur dəhlizi ilə bağlı işlərə başlasın, onda görərik ki, Ermənistanın niyyəti təmizdir və o, həqiqətən kommunikasiyaların açılmasını istəyir. Nikol Paşinyan bütün kommunikasiyaların açılmasını həqiqətən istəyirsə, ilk növbədə, iki ölkə arasında sülh müqaviləsi ilə bağlı gündəliyi icra etməlidir. Bu gün Ermənistanın sülh müqaviləsinin imzalanmasını başa çatdırılması üçün icra etmədiyi iki maddə beynəlxalq normaların tələbidir. Ermənistan Azərbaycanla kommunikasiyaların açılmasını istəyirsə, ilk növbədə, konstitusiyasında Azərbaycana qarşı olan ərazi iddialarından rəsmi şəkildə əl çəkməli və iki ölkə arasında diplomatik münasibətlərin yaranmasına aparan addımlar atmalıdır".

A.Badamov vurğulayıb ki, bu gün Azərbaycanla Ermənistan arasında diplomatik əlaqələr qurulmadığı halda hər hansı başqa əlaqələrin yaradılmasından danışmaq absurddur: "Bu baxımdan, Paşinyanın açıqlamaları ilə real hərəkətləri tamamilə bir-birinin əksidir. Nəqliyyat kommunikasiyalarının açılmasından danışan Paşinyan özünü sülhsevər kimi təqdim edir, amma ölkəsini öldürücü silahlarla sürətlə silahlandırır. Əgər rəsmi İrəvanın Azərbaycanla sülh və əməkdaşlıq içində yaşamaq niyyəti varsa, Ermənistanın sürətlə militarizasiyasını niyə aparırlar? Hindistandan, Fransadan və digər ölkələrdən aldıqları silahları kimə qarşı istifadə etmək niyyətindədirlər? Bir tərəfdən, Azərbaycana qarşı olan ərazi iddialarından əl çəkmirlər, digər tərəfdən, sürətlə silahlanır, hətta aradabir təxribatlara da əl atırlar. Belə olan halda hansı kommunikasiyaların açılmasından danışmaq olar?"

Deputat bildirib ki, Paşinyan məqalədə həm də İrandan Naxçıvana açılacaq yolla eyni statusda Azərbaycanın Qərb rayonları ilə Naxçıvan arasında əlaqənin yaradılmasına hazır olduğunu bildirir: "Burada da bir absurd məqam var. Əgər Ermənistan bizə İranla eyni statusda yol verirsə, uzun illər düşmən Ermənistana niyə üstünlük verməliyik? Təbii ki, eyni statusla yol olacaqsa, biz İranın üzərindən daşınmaların aparılmasına üstünlük verəcəyik. Nəticədə isə Ermənistan yenə də dalan ölkə olaraq qalmaqda davam edəcək. Əgər Zəngəzur dəhlizinin açılışını sürətləndirsələr, Ermənistanın beynəlxalq daşımalardan qazanc əldə etmək imkanı yaranacaq. Əks halda son 34 ildə hansı vəziyyətdədirlərsə, elə də qalmaqda davam edəcəklər".

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 11 mart (№53 ).- S.8.